# BƏDƏN DİLİ

## Keçmiş FTB agentindən insanları oxuma bələdçisi




**CO NAVARRO**
**FTB agenti**

*Prof. Dr. Marvin Karlinslə*


Tərcüməçi: Kamil Kamilli

qanun nəşriyyatı

# WHAT EVERY BODY IS SAYING

## An Ex-FBI Agent`s Guide to Speed-Reading People




**JOE NAVARRO**
**FBI Special Agent (Ret.)**

*with Marvin Karlins, Ph.D.*

Bədən dilinə aid bu möhtəşəm əsər elmi ictimaiyyətə məlum olmayan bilikləri təqdim etməklə yanaşı, həm də onların söykəndiyi elmi faktları diqqətə çatdırır. Kitabda çoxlu elmi əsərlər, yazılar, müəlliflərdən sitatlar gətirilir, hər bir davranışın nə anlama gələ biləcəyinin daha ətraflı və etibarlı şəkildə izahına çalışılır.

İnsan davranışları bütün təfərrüatı ilə təsvir olunur və bu davranışlarla bağlı müəllifin rastlaşdığı, müşahidə etdiyi maraqlı əhvalatlar nəql edilir ki, bu da kitabı daha maraqlı və oxunaqlı edir.

Şəfqətli əlləri ilə balaca bir uşağı kişiyə çevirən
nənəm Adelinaya ithaf olunur
**– CO NAVARRO**

Məni hər zaman sevgisi ilə əhatə edən və mənə
qayğının insan oğlu üçün nə demək olduğunu
öyrədən həyat yoldaşım Editə həsr olunur
**– MARVİN KARLİNS**

# MÜNDƏRİCAT


Ön söz ........................................................................ VIII

Təşəkkürlər ............................................................ XII

**BİR.** Qeyri-verbal ünsiyyətin sirlərinə yiyələnmək...... 1

**İKİ.** Limbik mirasımızı yaşamaq .................................. 23

**ÜÇ.** Bədən dilində “Ayaqları üstündə durmaq” .......... 58

**DÖRD.** Gövdə ilə bağlı işarətlər .................................. 94

**BEŞ.** Əlimizin altındakı bilik ........................................ 119

**ALTI.** Nəzarəti əldə saxlamaq ..................................... 145

**YEDDİ.** Zehin lövhəsi ................................................... 179

**SƏKKİZ.** Aldatmanı müəyyən etmək .......................... 222

**DOQQUZ.** Son sözlər ................................................... 253

## ÖN SÖZ

# Nə düşündüyünüzü görə bilirəm

**Marvin Karlins, Ph.D.**

Adam masanın başında mətin bir şəkildə əyləşmiş, FTB agentinin verdiyi suallara ehtiyatla və ustalıqla cavab verirdi. O, qətl hadisəsində əsas şübhəli hesab edilmirdi. İfadəsi inandırıcı idi və nitqi də səmimi səslənirdi, bununla belə, xəfiyyə israrla ona təzyiq göstərməyə çalışırdı. Şübhəlinin rizası ilə ona qətldə istifadə olunan silah barədə suallar seriyası ünvanlandı:

> "Əgər cinayəti sən törətmiş olsa idin, tapançadan istifadə edərdin?"
> "Əgər cinayəti sən törətmiş olsa idin, bıçaqdan istifadə edərdin?"
> "Əgər cinayəti sən törətmiş olsa idin, ledorubdan[1] istifadə edərdin?"
> "Əgər cinayəti sən törətmiş olsa idin, çəkicdən istifadə edərdin?"

Sadalanan silahlardan biri – ledorub cinayətin törədilməsində istifadə olunmuşdu, amma bu informasiya gizli saxlanılırdı. Beləliklə, sadəcə, qatil həqiqi cinayət silahının hansı olduğunu biləcəkdi. Silahların siyahısını bir-bir sadalayan FTB agentinin gözləri şübhəlinin üzərində idi. Ledorubun adı çəkildikdə adamın göz qapaqları sərt bir hərəkətlə qapandı və növbəti silahın

[1] Alpinizmdə buzlu zirvələrə dırmaşmaq üçün istifadə olunan çəkicə bənzər alət.

adı çəkilənə qədər də elə qaldı. Xəfiyyə müşahidə etmiş olduğu göz qapağı davranışının əhəmiyyətini dərhal anladı və həmin andan etibarən cinayətkar olduğu ehtimal edilən həmin bu şəxs istintaqın əsas "qurbanı"na çevrildi. Sonradan cinayəti törətdiyini boynuna aldı.

Cinayətin üstünün açılmasına nail olan şəxs çox dəyərli insan, FTB-də çalışdığı iyirmi beş illik müdhiş karyerasına ledorub qatilindən əlavə, çox sayda (o cümlədən "usta casusları") cinayətkarın yaxalanmasını sığdıran Co Navarro idi. Bəs o bunu necə edə bildi? Bu sualı ona versəniz, sakit tərzdə sizə: "Bunun üçün insanları oxuma bacarığıma borcluyam", – deyəcəkdir.

Sən demə, Co bütün peşəkar həyatını insanların nə düşündüyü, necə hərəkət etmək niyyətində olduğu və nitqlərinin doğru və ya yanlış olduğunu anlamaq üçün qeyri-verbal[1] kommunikasiyaların araşdırılması, ayırd edilməsi və tətbiqinə həsr edib. Bu qeyri-verbal kommunikasiyalara daxildir: üz ifadələri, jestlər, fiziki hərəkətlər (kinesika), bədən məsafəsi (proksimika), toxunuş (haptika), duruş və hətta geyim. Bu, diqqətli müşahidə altında olarkən, çox vaxt öz düşüncə və niyyətlərini şəffaf və müəyyən olunan etmək üçün qeyri-verbal bədən siqnallarını ("söyləntilər") normadan artıq nümayiş etdirən cinayətkarlar, terroristlər və casuslar üçün yaxşı xəbər *deyil.*

Amma siz oxucular üçün çox yaxşı xəbərdir, çünki Conun söykəndiyi eyni qeyri-verbal bilik FTB-də mahir "Casus-yaxalayan", "yalan detektoru" və təlimat kitabçasına çevrilib ki, bütün bunları o sizinlə bölüşəcək və beləcə, siz də ətrafınızdakı insanların duyğu, düşüncə və niyyətlərini daha yaxşı anlayacaqsınız. Məşhur yazıçı və pedaqoq olan Co necə bir mütəxəssis kimi müşahidə aparmağı, digərlərinin qeyri-verbal davranışlarını aşkar və müəyyən etməyi sizə öyrədəcək, bununla da həmin insanlarla daha uğurlu qarşılıqlı əlaqələr yarada biləcəksiniz. Fərqi yoxdur, bədən dilini iş üçün öyrənirsiniz, ya sadəcə, ləzzət almaq üçün, bu bilik həyatınızı daha zəngin və rəngarəng hala gətirəcəkdir.

---

[1] Verbal və qeyri-verbal kommunikasiya – sözlər vasitəsilə yaradılan ünsiyyət və sözsüz ünsiyyət.

Conun bu kitabda sizinlə bölüşəcəyi şeylərin əksəriyyəti on beş il əvvələ kimi hətta elmi ictimaiyyətə məlum deyildi. Conun təsvir edəcəkləri yalnız son illərdə beyin analiz edən texnologiyalarda və sinir şəkilləndirməsində əldə olunan inqilablar vasitəsilə əsaslandırıla və təsdiq edilə bilər. Psixologiya, neyrobiologiya, təbabət, sosiologiya, kriminologiya, ünsiyyət elmləri və antropologiyadakı ən son kəşflərə, üstəgəl FTB xüsusi agenti kimi dörddəbir əsrlik qeyri-verbal ünsiyyətdən istifadə təcrübəsinə əsaslanan Co sizə qeyri-verbal kommunikasiyaları anlamaqda uğur qazanmağa kömək etmək üçün peşəkar şəkildə ixtisaslaşmışdır. Onun peşəkarlığını bütün dünya bilir və bu peşəkarlığa ehtiyac duyur. Müntəzəm olaraq *NBC'nin Today Show, CNN Headline News, Fox Cable News, and ABC'nin Good Morning America* kimi proqramlara dəvət olunmasından əlavə, FTB və MKİ (CİA), eyni zamanda digər kəşfiyyat idarələrinin üzvləri üçün seminarlar təşkil etməkdə davam edir. O, bir sıra bank və sığorta sənayelərinin, eyni zamanda həm ABŞ-da, həm də xarici ölkələrdəki böyük hüquq firmalarının məsləhətçisidir. Co həmçinin qeyri-verbal ünsiyyət sahəsindəki nadir bacarığının anlayışlı auditoriya (o cümlədən daha böyük sürət və dəqiqliklə pasiyentlərinə diaqnoz qoymağa can atan həkimlər arasında) qazandığı Sent Leo Universiteti və ABŞ-dakı müxtəlif tibbi məktəblərdə dərs deyir. Conun akademik biliyi ilə məsləki kimliyinin real zaman daxilində baş verən gərgin vəziyyətlərdə qeyri-verbal kommunikasiyaları ustacasına analiz etmə bacarığı ilə birləşməsi onu bədən dili ekspertləri arasında xüsusi, qabaqcıl bir nöqtəyə qoyur ki, bu kitabı oxumaqla özünüz də görəcəksiniz.

Co ilə işlədikdən, seminarlarında iştirak etdikdən və ideyalarını öz həyatıma tətbiq etdikdən sonra bu səhifələrdəki materialların qeyri-verbal ünsiyyət barədəki hər şeyi anlamağımızda böyük bir üstünlük olacağına səmimi-qəlbdən inanıram. Bunu sizə təqdim edilən bu layihədə şəxsən iştirak edən təcrübəli psixoloq kimi deməyimin səbəbi odur ki, Conun qeyri-verbal kommunikasiyaların elmi məlumatlarından peşəkar obyektivlərə